**UOT 94**
**https://doi.org/10.59849/2218-4783.2024.2.83**

**TURQAY ƏSƏDLİ**

# ŞAHRUXUN AZƏRBAYCAN YÜRÜŞLƏRİ

*XIV əsr Azərbaycan tarixində çox fərqli bir yerə malikdir. Monqol işğalından sonra qurulan Elxani imperatorluğu zəifləyərək dağılmış, onun yerinə isə Azərbaycan Bağdad mərkəzli bir digər monqol əsilli dövlətin – Cəlairilərin hakimiyyəti altına keçmişdir. Lakin bu hakimiyyət 30 ildən artıq çəkməmiş, onun yerində dünya tarixinə damğa vuran Əmir Teymurun liderliyindəki Çağataylar bölgəni təsiri altına almışdır. Teymurun 1405-ci ildəki ölümü bu təsiri xeyli zəiflətdi, ancaq bunu bərpa etmək üçün varisi Sultan Şahrux 3 dəfə Azərbaycana yürüş təşkil etdi. Bu yürüşlərin ilkin hədəfi Azərbaycan olsa da, təsiri bütün Anadoluya və Yaxın Şərqə yayılırdı.*

*Şahruxun yürüşləri onu göstərir ki, Azərbaycan yalnız bölgəni ələ keçirmək və idarə etmək istəyən liderlərin yox, dünya fatehliyi iddiası ilə çıxış edən imperatorlar üçün çox vacib bir bölgədir. Məqalənin yazılma məqsədi tarixin bu dövrünə lazımi diqqəti cəlb etmək, elmi ədəbiyyata kiçik də olsa, töhfə verməkdir. Məqalə yazılarkən Teymurilər və Qaraqoyunlularla bağlı yazılmış Azərbaycan və Türkiyə tarixçiliyinin ən önəmli əsərləri istifadə olunmuşdur.*

**Açar sözlər:** *Azərbaycan, Şahrux, Teymurilər, Qaraqoyunlular, Cəlairilər.*

**Giriş.** Çingiz xan ölmədən öncə qurduğu imperatorluğu 4 ulusa bölündü və bu uluslar mərkəzi hakimiyyətə tabe olmaq şərti ilə ayrı-ayrı bölgələrdə hakimiyyətlərini genişləndirirdilər. Sakit Okeandan Şərqi Avropaya qədər uzanan böyük Monqol imperatorluğu vahidliyini XIII əsrin sonlarında itirməyə başladı. Ona tabe olan 4 ulus (və Hülakü xan tərəfindən qurulan "5-ci monqol ulusu" ) ayrı-ayrı dövlətlər kimi müstəqil siyasət yeritməyə başladı. Çingizdən sonra türk xalqları tarixinin ən böyük şəxsiyyətlərindən birinin yetişdiyi dövlət də elə bu uluslardan biri – Çağatay ulusu idi. Bu ulusun içində olduğu qarışıq durum Teymur kimi bir şəxsiyyəti yetişdirmiş və o da öz növbəsində dünya hərb tarixinə damğasını vurmuşdu. Hələ gənc yaşlarında Əmir Hüseyn ilə birlikdə hərəkət edərək dövlətin taleyini dəyişmiş, daha sonra isə Əmir Hüseyni aradan götürərək özünə yeni bir dövlət qurmuşdu. Özünü Çingiz xanın varisi hesab edən Teymur Gürgan (Gürgan kürəkən mənasını bildirir, dövrün qanunlarına görə Çingiz xan nəslindən olmadığı müddətcə taxta sahib olunması qanunsuzdur, ona görə də Teymur Çingiz nəslinin kürəkəni olduğunu vurğulamaq üçün bu ləqəbi ön plana çıxarırdı) "sələfi" (Çingiz nəzərdə tutulur) kimi dünya fatehliyi iddiası ilə şərqə və qərbə hücumlar gerçəkləşdirmişdir. Öz dövrünün ən güclü hökmdarlarından Cuci ulusunun (Altın Orda) Toxtamışı, Osmanlı sultanı I Bəyazidi, Məmlük sultanı Sultan Berqoqu belə özündən asılı hala salmışdır. Teymur hakimiyyətinin ilk 16 ilində ətraf hakimlikləri özünə birləşdirmiş siyasəti daha çox şərq yönümlü olmuşdur. 1386-cı ildən etibarən üzünü qərbə çevirən Teymur İran, Ərəb və Əcəm İraqı, Anadolunun böyük bir hissəsi və Azərbaycan daxil olmaqla Qafqazı öz dövlətinə birləşdirmişdir. Teymur dövrün ən qiymətli coğrafiyalarından hesab edilən Yaxın Şərq, Anadolu və Qafqaza hakimlik iddia edən Məmlükləri və Osmanlıları özündən asılı hala salmış, dövlətini dünyanın supergücünə çevirmişdir.

Giriş bölməsində Teymurdan bəhs edilməsinin səbəbi onun qurduğu dövlətin gücünü dərk etmək və ölümündən sonra baş verən hadisələrin daha yaxşı qavranılmasını təmin etməkdir. Çünki onun ölümündən sonra baş verən hadisələr bilavasitə Teymurun fəthləri ilə bağlıdır. Məqalənin ilk fəslində bəhs edildiyi kimi Teymurun Anadoluya və Azərbaycana yürüşlərində

baş verən hadisələr Şahruxun Azərbaycana təşkil etdiyi yürüşlərə birbaşa təsir etmiş, Anadoluda Teymuri tərəfdarı və Teymurilərə qarşı olan tayfalar meydana gəlmişdir. Bütün bu faktlar İsgəndərin Sultan Şahruxun ilk yürüşündən sonra atdığı addımların səbəbini meydana çıxarır. Həmçinin eyni etnik kökənə mənsub iki tayfanın – Ağqoyunlu və Qaraqoyunluların bir-birilə mübarizəsinin ən kəskin dövrünün nə üçün Şahruxun yürüşləri dövrünə təsadüf etdiyini yalnız Teymurun yürüşlərinə qısa bir nəzər salmaqla anlaya bilərik. Çünki Şahrux öldükdən və Cahanşah müstəqil siyasət yeritməyə başladıqdan sonra Ağqoyunlular ilə Qaraqoyunlular arasındakı münasibətlər nisbətən də olsa sabitlənmişdi. (Buna səbəb Qara Yuluq Osmandan sonra Ağqoyunluların çəkinməsi də ola bilər) Ağqoyunlu – Qaraqoyunlu münasibətləri Şahruxun yürüşləri zamanı hadisələrin gedişatına yön verən faktorlardan idi.

Şahruxun Azərbaycana təşkil edilən üç yürüşünün nəticəsi olaraq mövzunu araşdıran dəyərli türkoloqların bir çoxu eyni qənaətə, yəni Şahruxun yürüşlərinin çox böyük bir nəticəsinin olmadığı qənaətinə gəlmişdirlər. Lakin Şahruxun bölgə daxilində etdirdiyi köçlər yazar İsmayıl Akaya görə çox böyük mənfi təsirlərə yol açmış və hətta buradakı türk nüfuzunun bərpası üçün Anadoludan buraya türkmənlər köçürülmüşdür.

Şahruxun yürüşlərinin heç bir nəticəsinin olmadığını söyləmək də düzgün deyildir, çünki biz Şahruxun qarşısına qoyduğu hədəflərə baxaraq deyə bilərik ki, Şahrux hədəfinə çata bilmədi. Lakin Şahruxun yürüşləri ondan sonra baş verən hadisələrə təsir göstərmişdir və bu yürüşlərin geniş araşdırılması başda Qaraqoyunluların Cahanşah dövrü olmaqla bir çox tarixi dövrün hadisələrinin aydınlaşdırılmasında və qavranmasında mühüm rol oynayacaqdır.

**Teymurilərin Azərbaycana gəlişi.** 1370-ci ildə Çağatay ulusunda hakimiyyəti ələ alan Əmir Teymur hakimiyyətinin ilk illərində Monqolustana və Xarəzmə yürüşlər təşkil etmiş, yaxın bölgədəki hakimiyyətini gücləndirmişdir. Yaxın ərazilərə təşkil edilən səfərlər 1386-cı ilə kimi davam etmiş, bu ildən etibarən isə köhnə Elxani imperatorluğu torpaqlarına yönəlməyə başlamışdı. 1386-cı ilin başlarında başlayan üçillik səfərin ilk hədəfi İran coğrafiyası idi. Luristan bölgəsinin hakimini həcc karvanlarını taladığı üçün cəzalandırdıqdan sonra Teymur Azərbaycana doğru yola çıxmağa başladı. Bağdaddan yola çıxaraq Təbrizi ələ keçirən Sultan Əhməd Teymurun böyük bir ordu ilə bölgəyə gəldiyini eşitdikdə geri dönür. Əmir Teymur ilk öncə Təbrizi, sonra isə Naxçıvanı (Müqaviməti ilə dillərə dastan olan Əlincə qalasının mühasirəsi də elə bu ildən başlayır) ələ keçirdikdən sonra Qarabağa gedir. Teymur vaxt itirmədən Qafqazın tək xristian ölkəsi olan Gürcüstanın üzərinə yürüş təşkil edir. Monqolların zamanında bir neçə kiçik krallıqdan ibarət olan Gürcüstan yenicə V Georginin rəhbərliyində birləşmiş, idarəsi Elxani hökmdarı Əbu Səid tərəfindən Şeyx Həsən Cəlairiyə tapşırılmışdı. Əmir Teymur eyni ildə Tiflisi mühasirəyə almış və şəhəri ələ keçirmişdi. Teymurun saray tarixçiləri "Əmirin məsləhəti və xoş davranışı nəticəsində Gürcüstan hökmdarı və əhalinin bir qismi öz istəkləri ilə müsəlman olmuşdu" məlumatını bizlərə çatdırır. Əmir Teymur Gürcüstan bölgəsindən Azərbaycana geri dönür, Şirvan (Şirvanşah I İbrahimin özü ilə birlikdə 9 qulu Teymura təqdim etməsi hadisəsi bu zaman baş vermişdir) və Gilan hakimləri xoşluqla Teymurun hakimiyyətini qəbul edirlər. Beləliklə, bütövlükdə Azərbaycan və Gürcüstan Teymurdan asılı vəziyyətə düşür [6, s. 168-172].

Qış mövsümünü Azərbaycanda keçirən Teymur 1387-ci ildə Dərbənd mövqeyində Toxtamış xanın ordu hissələri ilə kiçik bir toqquşmaya girdikdən sonra Anadoluya doğru hərəkətə keçir. Əmir Teymurun Anadoluya maraq göstərməsinin səbəbi Şərq ilə Qərbi birləşdirən mühüm ticarət yollarının bu bölgədən keçməsi idi və Teymur qurduğu dövlətin Səmərqənddən Anadoluya kimi bütün ticarət yoluna nəzarət etməsini istəyirdi, lakin zahirdə

Teymur həcc karvanlarının türkmənlər tərəfindən yağmalanmasının qarşısını almaq məqsədilə hərəkət etdiyini bildirmişdi [6, s. 168-172].

Anadoluya daxil olduqdan sonra Teymur ilk olaraq stratejik əhəmiyyətə malik Bəyazid qalasını aldı, ardınca Ərzurum, Muş, Adilcəvaz, Van kimi mühüm məntəqələrə hücumlar edərək Şərqi Anadolunun önəmli bir qismini özündən asılı hala saldı. Şərqi Anadoludan Azərbaycana (Urmiya) oradan da İrana keçən Teymurun üç illik səfərindəki ikinci önəmli hədəfi Müzəffəriləri məğlub etmək idi. 1388-ci ilə kimi aparılan müharibələrdə üstünlük Teymurun əlində olsa da, Qızıl Ordu xanı Toxtamışın ölkənin şimal vilayətlərinə basqınlar etdiyi xəbərini aldıqdan sonra tələsik mərkəzə döndü və beləliklə Teymurun "Üç illik" səfəri başa çatdı. Bu yürüş nəticəsində İranın bir qismi, Azərbaycan, Gürcüstan və Şərqi Anadolunun böyük bir qismi nəzarət altına alındı [5, s. 53-54].

1391-ci ildə Əmir Teymur Toxtamışa cavab olaraq etdiyi böyük "Dəşti-Qıpçaq" yürüşü Toxtamışın darmadağın olması ilə nəticələndi. Əmir Teymur Səmərqəndə döndükdən sonra qərbə doğru ikinci böyük yürüşünün hazırlıqlarının başlanması üçün əmr verdi, bu hazırlıqlar beş ili əhatə edəcək səviyyədə olmalı idi. 1393-cü ildə başlanan bu "Beş illik yürüş"-ün ilk hədəfi keçən yürüşdə Müzəffərilər ilə yarımçıq qalmış hesabı tamamlamaq idi. 1393-cü ilin martında Şiraza gələn Teymur Müzəffəriləri məğlub etdikdən sonra iyun ayında Azərbaycana keçdi. Təbrizə gəldikdə digər bir önəmli rəqib hesab olunan Sultan Əhməd Cəlairiyə çağırış edərək hüzura gəlib tabe olması tələb edildi. Sultan Əhməd elçi göndərək qorxduğu üçün hüzura gəlməyəcəyini amma tabe olduğunu bildirdi. Bu vəziyyət Əmir Teymurun xoşuna gəlməsə də, elçiyə yaxşı davranıldı. Əmir Teymur Təbrizi tərk etmədən öncə Azərbaycanın, Gilanın, Gürcüstanın və Şərqi Anadolunun idarəsini oğlu Miranşaha tapşırdı [2, s. 29-30].

Yürüşün başında nəvələrini Bağdada hücum üçün vəzifələndirən Teymur özü də Yaxın Şərqə hərəkət etdi. 1393-cü ilin sonlarında Bağdad fəth edildikdən sonra Teymur ordusu ilə şimala doğru hərəkət etdi və yenidən Şərqi Anadoluya daxil oldu. Burada ələ keçirilməsi çox çətin olan Mardin, Diyarbəkir qalaları ələ keçirildi, Sivas əmiri Qazi Bürhanəddinin tabe olmaması ilə Qars şəhərinə hərəkət edilmiş və buradan Gürcüstana bir yağma yürüşü təşkil edilmişdir. Bunun səbəbi olaraq isə elmi ədəbiyyatda Altın Orda üzərinə yürüş etmədən əvvəl arxadan ona təhlükə yaradılmasının qarşısını almaq olduğu qeyd olunur [6, s. 196-200].

Teymur 1394-1396-cı illərdə "İkinci Dəşti-Qıpçaq səfərinə" başlamış, 1395-ci ildə Terek çayı sahilində Toxtamışı ağır məğlubiyyətə uğratmışdı. Bununla belə Toxtamışın Teymur və onun dövlətinə böyük bir təhlükə yaratmadığını demək mümkündür. 1396-cı ildə Altın Ordanın böyük şəhərləri yağmalandıqdan və dağıdıldıqdan sonra Teymur Səmərqəndə geri dönmüşdür. 1398-ci ildə başladığı Hindistan səfərində də uğur qazanan Teymur, 1399-cu ildə geri dönmüş və yeddi illik səfər üçün hazırlıqlara başlamışdı [10, s. 434-435].

Teymurun bu uzun yürüşə nə üçün çıxdığı ilə bağlı dəqiq məlumat əlimizdə yoxdur. Lakin uzun müddətdir ələ keçirdiyi ərazilərdə olmaması və burada baş verən mühüm dəyişikliklərin olması modern dönəm Teymuri tarixçiləri tərəfindən göstərilən ən tutarlı səbəblərdəndir. Bu dəyişikliklərə qısaca göz gəzdirsək əgər, bunlardan ilki Miranşahın Azərbaycanda nəzarəti itirməsidir. Əhaliyə qəddarca davranması nəticəsində "Maranşah" ("Maran " sözünün mənası ilandır) ləqəbini alan, Şəki hakimliyi ilə silahlı münaqişə yaşayan, Əlincə yaxınlığında ağır məğlubiyyətə uğrayan Miranşah 1396-cı ildə bir ov zamanı atdan yıxılmış və travma almışdır. Miranşahın nəzarət altına alınması yeni ələ keçirilmiş bölgələrdə avtoritariyanın qorunması üçün çox mühüm idi. Digər bir sıra dəyişikliklər də şübhəsiz ki, Teymurun Anadolu və Azərbaycana yeni bir səfər təşkil etməsinə şərait yaratmışdı [6, s. 211-217].

Əmir Teymur Rey şəhərinə çatdıqda oğlunu yanına çağırmış, ətrafındakı əyanları edam etdirmiş və 7 il boyunca onu yanından ayırmamışdı. Teymur oradan Azərbaycan, buradan isə Gürcüstana hərəkət edərək müqavimət göstərən gürcüləri məğlub etmişdir. Anadoluya hərəkət edən Teymur buradan Suriya üzərinə səfər çıxmış, Şam şəhərini ələ keçirmişdir. 1401-ci ilin yay aylarında Teymur qışlamaq üçün Qarabağa getməyi qərara alır və Bağdaddan Təbrizə doğru yola çıxır, daha sonra isə Qarabağa keçir. Teymur uzun müddətdir aralarında soyuq müharibənin davam etdiyi Sultan Bəyazid ilə 1402-ci ildə məşhur Ankara savaşında qarşılaşır və onu məğlub edərək əsir götürür. Daha sonra isə Anadoludakı bəylikləri özünə tabe edərək Anadoludan çıxmış, 1403-cü ilin yayında Gürcüstan üzərinə yürüş etmiş, qışlaq olaraq yenidən Qarabağı seçmişdir. 1404-cü ilin ilk aylarında isə Səmərqəndə yola düşmüş və beləliklə Teymurun 7 illik səfəri sona çatmışdır. Bu yürüşün nəticəsində Teymur bu coğrafiyada yarım qalan bütün işlərini tamamlamış, dövrün ən böyük hökmdarlarından Bəyazidi məğlub etmiş, Osmanlını və Məmlükləri özündən asılı hala salmışdır [2, s. 36-46].

**Şahruxun Azərbaycana I yürüşü.** 1405-ci ildə Teymur Çin səfəri zamanı yolda vəfat etmişdi. Teymur da öz sələfi hesab etdiyi Çingiz xan kimi vəsiyyətini açıqlamış, qurduğu imperatorluğun gücünü itirməsini istəməmişdi. Lakin sələfindən fərqli olaraq onun vəsiyyətinə əməl edilməmiş, ölkə daxilində böyük bir xaos başlamışdı. Teymurun oğlanları və nəvələri arasında gedən taxt savaşları yalnızca mərkəzi hakimiyyəti zəiflətmir, tabelikdə olan bölgələrin azadlıq mübarizəsinə başlamasına, Teymur tərəfindən güclü zərbə ilə haradasa təsirsiz hala gətirilmiş Osmanlı və Məmlüklər kimi güclü imperatorluqların özlərini topalamasına səbəb olurdu.

Geosiyasi baxımdan çox mühüm mövqedə yerləşən Azərbaycanda və Anadoluda da vəziyyət qarışmağa başlamışdı. Teymura bağlılıqlarını bildirən və Teymur tərəfindən zorla asılı hala salınan bəyliklər artıq nəzarətdən çıxmışdı. Teymurun sağlığında ona xeyli problem yaşatmış olan Qara Yusif və Cəlayirli Sultan Əhməd də həbsdən buraxılmış və iki dost Azərbaycanda hakimiyyəti qazanmaq üçün yola çıxmışdılar. Azərbaycanda hakimiyyəti əlində tutan Miranşah və onun oğlu Əbu Bəkr Teymurun ölümündən sonra mərkəzə diqqət yetirərək taxt mübarizəsinə əlverişli mövqe sahibi olmaq istəmiş, Şahruxun qələbə qazanmasından sonra bütün diqqətlərini Azərbaycanda hakimiyyəti əllərində tutmağa yönəltmişdilər (1405-1406-cı illər arasında isə Azərbaycan taxtının sahibi Şirvanşah İbrahim olmuşdu). Həbsdə olarkən Bağdadı və Azərbaycanı bölüşdürən iki dost Teymuri qüvvələrini hər iki bölgədən çıxarmağa söz vermişdilər. 1406-cı il 14 oktyabr tarixində Naxçıvan yaxınlığında baş verən döyüşdə (Bu döyüş Azərbaycan tarixi kitablarında I Şənbi-Qazan döyüşü kimi tanınsa da, F.Sümer və İ.Aka kimi türk tarixçilər döyüş yerini mətndə qeyd edildiyi kimi göstərirlər) Teymurilər ağır məğlubiyyətə uğramışdılar. Bu döyüşdən cəmi bir il yarım sonra, yəni 21 aprel 1408-ci ildə Sədrud döyüşündə türkmənlər onlardan olduqca çəkinən Çağatay ordusunu məğlubiyyətə uğratmış, Miranşahı öldürmüşdülər. İki döyüşün nəticəsində 32 ildən sonra Teymuri qoşunları Azərbaycandan çıxarılmışdı.

Qara Yusifin Azərbaycanda mütləq hakimiyyəti bərpa etmək yolunda əmin addımlar atması Cəlayirli Sultan Əhmədi xeyli qorxutdu və Əhməd Təbrizə qoşun yeritdi. 1410-cu ildə Təbriz yaxınlığında baş verən döyüşdə Qara Yusif Sultan Əhmədi məğlub etdi, qaçıb gizlənən sultan Əhməd tapılaraq Cəlayirli əmirlərin israrı ilə edam edildi. Edam edilmədən öncə Sultan Əhməd tərəfindən mənəvi oğulluğa götürülən və Qara Yusif həbsdə ikən doğulan Pirbudaq vəliəhd elan edildi. Qara Yusif Çingiz xan adətlərinə uyaraq 1411-ci ildə Pirbudağı xan elan etdi (F.Sümer əsərində bunun əksinə olan və tarixçi Mirxanda aid "Pirbudaq 1407-ci ildə xan

elan edildi" fikrinə də yer vermiş, bu fikrin qətiyyən düzgün olmadığını da sonda bildirmişdir) [11, s. 88], lakin bu formal addım idi, bütün dövlət işləri Qara Yusifə bağlı idi [3, s. 10]. 1418-cı ildə Pirbudağın ölümü ilə Qara Yusif hakimiyyəti tamamilə əlinə aldı.

Şahruxun sultanlığını elan edərək atasının mirasının böyük bir qismini şərqdə bərpa etməsi, Xorasan, Xarəzm, Mazandaran, Mavəraünnəhr kimi mühüm bölgələri təsir altına alması Teymuri imperatorluğunda taxt savaşının tezliklə sonlanacağını göstərirdi. Onun ölkə daxilindəki ən böyük rəqiblərindən olan Səmərqəndi ələ keçirərək sultanlıq iddiası edən qardaşı oğlu Xəlil Sultan məğlub olub əsir alındıqdan sonra Səmərqənd taxtını əmisinə təhvil vermiş, 1410-cu ilin yazında Şahrux Xəlil Sultanı 10.000 atlı ilə təmin edərək "atasının mirası" olan (Xəlil Sultan Miranşahın oğlu idi) Azərbaycana doğru yollamışdı. Beləliklə, Şahrux artıq Teymurun çoxillik səfərlərlə ələ keçirdiyi bölgələrə səfər həyata keçirmək ilə bağlı düşünməyə başladı. Xəlil Sultanın Azərbaycana yollanması isə Şahruxun bu bölgəyə yürüş ilə bağlı ilk təşəbbüsü idi [4, s. 4]. Lakin Ömər Şeyxin oğlanlarının arasındakı münaqişələr ucbatından Reydən irəliyə gedə bilməmiş, 1411-ci ildə Reydə vəfat etmişdir. Şahruxu nəzərə almasaq Teymurilər tərəfindən ikinci təşəbbüs Ömər Şeyxin oğlu İsgəndər tərəfindən həyata keçirilmişdir. 1413-cü ildə Azərbaycandakı qıtlıq səbəbilə Sultaniyyəyə basqınlar edən Qara Yusifə qarşı İsfahanı yenicə ələ keçirmiş və Azərbaycanı zəbt etmə xülyasına qapılmış Teymuri şahzadəsi 1413-cü ilin yayında hərəkətə keçmişdir. Qara Yusif də ordu toplayaraq onun üzərinə gəlmiş, ancaq əsgərlərin içində yayılan xəstəlik səbəbindən geri dönmək məcburiyyətində qalmışdır. Qara Yusifin ondan qorxub qaçdığı ilə bağlı şayiə yayan və bundan qürrələnən İsgəndər də irəli getməyərək geri dönmüşdür. 1414-cü ildə isə Şahrux ordu toplayaraq qərbə doğru özünün ikinci təşəbbüsünü həyata keçirdi. Yolda Ömər Şeyxin oğlu İsgəndərin onun əmrinə qarşı gələrək orduya qatılmaması və üstəlik Teymuri taxtına iddia edərək qonşuluqdakı əmirləri Şahruxa qarşı çıxmaq üçün təhrik etməsi xəbərini aldıqdan sonra onun idarəsində olan İsfahan və Fars vilayətlərinə iki dəfə (1414 və 1415) hücum etdi və İsgəndəri tamamilə məğlubiyyətə uğratdı [11, s. 92-94].

Qara Yusif isə 1415-ci ildə ticari baxımdan xeyli əlverişli mövqedə yerləşən Sultaniyyə şəhərinin qarşılığında Şahruxa tabe olmaq təklifini Qaraqoyunluların ən bacarıqlı elçilərindən Mərdanşahın liderliyindəki heyəti Herata yolladı. Şahrux Qara Yusifin bu təklifinin yalnızca oğlu girov olaraq göndərilərsə reallaşa biləcəyini söyləmiş, Qaraqoyunlu hökmdarı isə bu təklifi qəti şəkildə rədd etmişdir. Gücünün son həddində olan və o zamana qədər Əfqanıstan, Xorasan, Xarəzm, Mavəraünnəhr, Sistan, Mazandaran kimi bölgələri özünə birləşdirən, taxt mübarizəsində ən son rəqiblərindən Mirzə İsgəndəri məğlub edərək İsfahan və Fars vilayətlərini öz əlində birləşdirən Şahruxa Arran və Sultaniyyə arasındakı bölgənin hakimi olan Bistam bəy də tabe olmuşdu. Qaraqoyunluların cəsur lideri Qara Yusif isə Şahruxdan Sultaniyyəni sülh ilə ala bilməyəcəyinin fərqinə vardıqda buraya hücum etdi. Bistam bəy məğlub olaraq Quma qaçmış, Qum vilayətinin hakimi Bistam bəyi Qara Yusifə yollamışdı (Qum hakiminin İraq Əcəminə hakim olma istəyi ilə əlaqədar olaraq Qara Yusifə yardım etdiyi təxmin edilir, lakin yenə də dəqiq səbəb məlum deyil). Qum əmiri Səd Vəqqasın bu yardımları nəticəsində Bistam bəy sərbəst buraxılmış, Qara Yusifin yanına getmək istəyən Sədin həyat yoldaşını (bu xanım Miranşahın qızı idi) razı salmaq mümkün olmamışdır. 1416-1420-ci illər aralığında Şahruxun da istəyi ilə Ağqoyunlular qərbdən Qaraqoyunluları sıxışdırmağa başladılar. Qaraqoyunlularla ədavəti olan Qara Yuluq Osman bəy də Şahruxun bu istəyindən narazı deyildi, çünki Teymuri sultanının da tezliklə rəqiblərini dəf edərək şərqdən Qara Yusifi təzyiq altına

alacağını bilirdi. Şahrux 1420-ci ildə Sultaniyyənin və Qəzvinin geri qaytarılması üçün hərəkətə keçməyi qərara aldı. (Şahruxun tək problemi bu deyildi. O, eyni zamanda Osmanlının güclənməsindən də narahat idi. Belə ki, Teymuri sultanı tərəfindən Çələbi Məhmədə yazılan məktubda Şahrux oğullarını öldürməyin düzgün hərəkət olmadığı ilə bağlı Osmanlı sultanını tənbeh etmiş, sultan isə cavabında hakimiyyətin ortaq qəbul etmədiyini bildirmişdi). Bu məsələni sülh yolu ilə həll etməyə çalışan sultan Sadiq adındakı birini Yusifin yanına göndərir, Yusifin ona tabe olmasını istədi. Elçi Qara Yusifin qərarının qəti olduğunu və müharibəyə hazırlaşdığını xəbər gətirdikdə Teymuri sultanı səfərə hazırlaşmağa başladı [11, s. 97-104].

Heratdan yola çıxan Şahruxa yolda Xarəzm hakimi Məlik Şah və digər əmirlər də qoşuldu, beləliklə ordunun sayı 200.000-ə çatdı. Yol üzərində yerləşən seyid və mövlaların məzarlarını ziyarət edərək Rey şəhərinə qədər gəlmişdi. Səfərə çıxmadan öncə ordusunu yeni texnika ilə gücləndirən Çağataylılar türkmənlər ilə müharibəyə girməkdən qorxurdu. Şahrux xarakter etibarilə dindar və sülhsevər bir şəxsiyyət olsa da, onun hafizlərə 12.000 dəfə “Fəth” surəsini oxumağı əmr etməsi və yürüş boyunca xəlvətə çəkilərək Allaha dua etməsi və Yusif ilə sülh vasitəsilə razılaşmağa çalışması tarixçilər tərəfindən onun bu müharibədən çəkindiyini göstərən faktlardan olduğunu göstərir [11, s. 105, 107].

Qara Yusif isə ordunu ruhlandırmaq üçün xəzinəni sonuna qədər açmışdı. Üstəlik Qaraqoyunlu bəyi özünə süvari ilə birlikdə piyada ordu hissəsi də yaratmaq fikrinə düşmüş, bunun üçün əsgər çağırışlarına başlanmışdı. Bu isə bölgədə indiyədək görülməmiş bir hadisə idi, hətta dövrün bəzi yazarların elə bu addımın Qara Yusifə uğursuzluq gətirdiyinə inanırdı. Bir tərəfdən isə Osmanlını müharibəyə cəlb etmək üçün Qara Yusif Osmanlı Sultanı Çələbi Məhmədə məktublar yazırdı. Bu məktublarda biz Qara Yusifin oğlanları haqqında məlumat əldə edə bilirik. Çünki dövrün qaynaqlarında İsgəndərin Kərkükdə, İsfəndiyarın Adilcəvazda, Murad şahın Bağdadda, Cahanşahın Sultaniyyədə, Əbu Səidin isə Ərzincanda olduğu (Ərzincan hakimi Pir Ömərin Ağqoyunlular tərəfindən əsir alınıb öldürüldükdən sonra Qara Yusif oğlunu buraya təyin etmişdi) bilinirdi. Lakin bu məktublarda görünür ki Yusifin oğlanlarının hər biri orduya rəhbərlik etmək üçün Azərbaycandaydı və hətta Yusif öldükdən sonra Murad şahın və İsfəndin Naxçıvan dağlarına sığındığı ilə bağlı məlumat verilmişdi (Yusifin ölümündən sonrakı məktublar İsgəndər tərəfindən yazılmışdır). Teymurilər son dəfə sülh ehtimalını yoxlamaq üçün Şah Məlikin adamlarından bəzilərini türkmənlərlə danışıq üçün yolladılar. Təklifin rədd edilməsi ilə bir yana, Şah Məlikin adamları da əsir götürüldü. Teymuri ordularının birlikləri Qəzvinə çatdıqda buradakı Qaraqoyunlu qüvvələri müdafiənin mənasız olduğunu görərək geri çəkilmiş və Sultaniyyədə müharibəyə hazırlaşmağa başlamışdılar. Sultan Şahrux isə geri aldığı torpaqlarda əhaliyə çox yaxşı davranılmasını, yağmaçılığa qətiyyən yol verilməməsini tapşırmışdı. Müharibəyə hazırlıqlar hər iki tərəfdə davam edərkən Cahanşaha gələn bir xəbər bütün planları alt üst etmişdi. Bu xəbər Qara Yusifin səyahətə çıxmadan öncə ağır xəstələndiyi və Təbriz yaxınlığındakı Ucanda öldüyü ilə bağlı idi. Cahanşah ordunu tələm-tələsik toplamış və Sultaniyyə şəhərini tərk etmişdi. Şahruxun Qəzvindəki casuslarından biri Sultaniyyə şəhərinin qazisi Qara Yusifin ölüm xəbərini gətirdikdə Şahrux çox sevinmiş və ordunun əhvalı yerinə gəlmişdi. Qəzvindən sürətlə Sultaniyyəyə və daha sonra Təbrizə gələn Şahruxu Pir Ömərə qarşı əsir götürülən Qara Yuluq Osman bəyin oğlu Yaqub bəy qarşılamışdı [4, s. 13-17].

Qara Yusifin oğlanları isə Şahruxun qarşısında dura bilməyəcəklərini anlayan zaman Anadoluya qaçmağa başlamışdılar. Cahanşah atasının nəşini götürüb Ərçişə gətirdi. İsfəndiyar

Sadlu qəbiləsinin yanına gedərək özünü Qara Yusifin varisi elan etdi. İsgəndər isə özünə əsgər toplayır, Teymurilərlə mübarizəyə hazırlaşırdı. Şahrux qışlamaq üçün Təbrizdən Qarabağa hərəkət edərkən onunla görüşmək üçün Ağqoyunlu bəyi Qara Yuluq Osman, Şirvanşah I Xəlilullah və digər bəylər də buraya doğru yola düşmüşdülər. Şahrux qışın bitməsilə Qarabağdan Beyləqana doğru hərəkət edərkən (1421-ci il aprel ayı) İsgəndərin Anadoludakı hərəkətlərindən (Ordu toplaması) Qaramanlı tayfaları Yar Əhmədin öndərliyində Gəncə və Bərdədə üsyan qaldırdılar. Üsyanın yatırılması üçün Şahruxun oğlu Mirzə Baysunquru yollaması xəbərini eşidən və Çağatay ordusunun gücündən çəkinən Yar Əhməd Gürcüstana qaçdı, lakin burada əsir götürüldü və beləliklə üsyan qısa müddətdən sonra yatırıldı. Şahrux Anadoluya doğru hərəkətə başladığında Qara Yusifin oğlanlarından İsfəndiyarın adamlarından biri əmirinin Şahruxa tabe olmaq istədiyini bildirmiş, lakin bu istək səmimi qəbul edilməyərək rədd edilmişdir. İsfəndiyar isə qaçaraq Bəyazid qalasına sığınmış, bu qala qısa bir müddət sonra Şahruxun oğlu Cuki Mirzə tərəfindən ələ keçirilmişdir [1, s. 220-223]. Bu halda buradan qaçan İsfəndiyar ilk öncə ailəsi ilə yayı keçirmək üçün Muş yaylağına gəlmiş, Teymuri qüvvələrinin onu təqib etdiyini gördükdə isə Diyarbəkirə doğru yola düşmüşdü. Daha sonra Teymurilər ilə müharibə aparmaq fikri olan qardaşı İsgəndər ilə birləşmiş və Azərbaycana doğru istiqamətlənmişdilər. (Qaraqoyunlular yola düşmədən öncə Şahruxa sülh təklifi yollasalar da, Şahrux bunu qəbul etməmişdi. Bu isə Şahruxun bu səfər öz qələbəsinə inandığını göstərirdi). Qardaşları təqib etməkdən yorulan və Təbrizə dönməyi planlaşdıran Çağatay birlikləri və onlarla müşavirə üçün gələn Ağqoyunlu bəyləri bu xəbərə olduqca təəccüblənmiş, Teymurilər hələ Anadoluda ikən qardaşların nə üçün bu addımı atdıqları anlaşıla bilməmişdi. Aralarında uzun müddətdir tayfa rəqabəti olan Ağqoyunluların lideri Qara Yuluq Osman bəy "Qaraqoyunluları və Qara Yusifin tərəfdarlarını tamamilə məhv etmədiyiniz müddətcə bu qarğaşa davam edəcək və əhali rahat olmayacaqdır" dedi. Sultan bu fikri doğru hesab etmiş olmalıdır, çünki bu müşavirədən sonra ordusunu Qaraqoyunluların yerləşdiyi mövqeyə doğru hərəkət etdirdi və 1421-ci il 28 iyulda Alaşkert vadisinin yaxınlığında yerləşən Altun Baxşı (və ya Yaxşı) adlanan yerdə iki ordu üz-üzə dayandı [4, s. 11]. Teymuri ordusu hər cəhətdən Qaraqoyunlulardan üstün idi, lakin türkmən qoşununu daha çox Uluqbəyin səfər öncəsində atasına verdiyi fillər qorxudurdu. Çünki türkmənlər hər cür vasitə ilə Teymuriləri dəf edə bilərdilər, lakin fillərdən qorxan atların olduğu bir şəraitdə süvari ordu ilə qələbə qazana bilməzdilər. Tarixi qaynaqlar göstərir ki çarəsiz qalan türkmənlər çox fərqli bir yola əl ataraq (əllərində olan öküzlərin üzərinə yük bağlayaraq) atları bu vəziyyətə alışdırmağa çalışmışdılar [11, s. 121].

Döyüşün ilk günündə (1421-ci il 29 iyul ) türkmənlər Teymuri qüvvələrinin hücumlarını bir-bir dəf edir və hətta əks-hücuma belə keçirdilər. Hələ yürüşün başında Qaraqoyunlu qüvvələrindən çəkinən Çağatay ordusu ilk günün nəticəsində döyüş meydanından böyük bir ruh düşkünlüyü ilə ayrıldı. İkinci gün də Teymurilərin hücumları dəf edildi, Şahrux artıq məğlub olacağını hiss edərək Allaha yalvarmağa başlamışdı. Lakin savaşın üçüncü günüdə yorğun düşən Qaraqoyunlular artıq Teymuri hücumlarını dəf edə bilmədi və döyüşdə məğlub oldular. Şahrux bu xəbərə o qədər sevindi ki, əsirlərin hamısını sərbəst buraxdı [11, s. 123]. İsgəndər və İsfəndiyar isə Anadolu torpaqlarına geri döndülər. Şahrux qələbədən sonra ordu rəhbərlərinə qış gəlmədən Xorasana dönmək üçün hazırlıq görülməsini tapşırdı. 1421-ci ilin yayında ("Avqustda Təbrizə gəldikdən bir neçə gün sonra dönmək qərarı alır") [11, s. 123]. Azərbaycanı tərk edən Şahrux Azərbaycanın hakimliyi Ağqoyunlu Qara Yuluq Osmanın oğlu

Əli bəyə tapşırıldı. (Bu barədə yazılan bəzi əsərlərdə "Azərbaycana hakim təyin etmək üçün Şahrux oğlanlarına, yaxın qohumlarına və əmirlərinə müraciət etdikdə İsgəndərdən çəkinən hər kəs bu vəzifədən imtina edirdi. Buna görə də sultan Azərbaycanı köhnə idarəçilərinə tapşırdı" kimi bilgilərə rast gəlinir. Lakin İsmayıl Aka öz əsərində bu qədər dəyərli bir bölgənin başına buraxılmasının məntiqsiz olduğunu bildirərək Osmanın oğlu Əli bəy faktının doğruluğunu müdafiə edir) [3, s. 18].

**Şahruxun Azərbaycan II və III yürüşləri.** Şahrux mərkəzə geri döndükdən sonra məğlub qardaşlardan biri olan İsfəndiyar Təbrizə gələrək öz hakimiyyətini burada qurmaq istədi. İsfəndin bu cəhdi qardaşının gəlişi ilə yarımçıq qaldı və İsfənd Bağdada, digər qardaşı isə Muradın yanına getdi. İsgəndər isə Təbrizə gələrək bölgədə Qaraqoyunlu hakimiyyətini bərpa etməyə müvəffəq oldu. Qaraqoyunlu İsgəndər hakimiyyətə gəldikdən sonra Qara Yuluq Osman bəyin qovduğu şəxslər tərəfindən də şikayətin gəlməsilə fürsətdən istifadə edərək atasına və özünə xəyanət edən Anadolu bəylərini cəzalandırmaq qərarı aldı. 1422-ci ildə Təbrizdən çıxaraq Bingöl ətrafına gəldi, ilk hədəfi Bitlis hakimliyini hücum etmək və əmirini cəzalandırmaq idi. Bitlis hakimi əmir Şəmsəddin isə Qara Yusifin apardığı uğurlu müharibələr zamanı ona tabe olmuş, lakin Şahrux bölgəyə böyük bir ordu ilə gəldiyini xəbər aldıqda Qaraqoyunlulardan üz döndərmişdi. Halbuki, zamanında Qara Yusifə etdiyi yardımlara görə türkmən bəyi ona qızını vermişdi. Hətta bəzi rəvayətlərə görə İsgəndər bacısının burada əziyyət çəkməsi səbəbindən Bitlis hakimini yanına çağırtmış və öldürmüşdür. Lakin bu rəvayət bir çox mənbələrdə inkar olunur və əsl səbəbin elə Bitlis hakimi Əmir Şəmsəddinin Şahruxa tabe olması olaraq göstərilir. İsgəndər Bitlis önlərinə gəlib qalanı mühasirəyə aldı, əmir Şəmsəddinə qalanı təslim etməsi ilə bağlı qaladakılara göstəriş verməsini tapşırdı. Qalanın mühafizi bunun bir hiylə olduğunu görüb qalanı təslim etmədikdə isə Şəmsəddin qala önündə edam edildi. Bununla paralel olaraq İsgəndərin əmirlərindən Dəli Əhməd Sultaniyyə şəhərinə basqın etmiş, buradakı mal-qaranı taladıqdan sonra qalaya həmlə etsə də, Şahruxun buradakı məmuru İlyas Xoca onu geri püskürtmüşdü. İsgəndər isə 1423-cü ildə Bitlisdən sonra Van və Hakkari hakimi Məlik İzzədin Şiri üzərinə səfərə çıxmış Van şəhərini mühasirəyə almışdı. Məlum olduğu kimi bu hakim də Qara Yusifin zamanında Qaraqoyunlulara tabe olmuşdu, amma Məlik İzzəddin Şir Bitlis hakimi Əmir Şəmsəddindən fərqli olaraq məcburən türkmənlərin hakimiyyətini qəbul etmişdi. Şahrux Qarabağa gəldikdə isə oğlu ilə birlikdə onun hüzuruna gəlmiş və tabeçiliyini bildirmişdi. İsgəndər Van şəhərini 4 ay mühasirədə saxladıqdan sonra Məlik Əhmədi əsir alaraq geri dönmüş və Əlincə qalası yaxınlığında edam etdirmişdi. (İsgəndərin Van yaxınlığında Məlik İzzədini də öldürdüyü haqqında məlumatlar mövcuddur). Qaraqoyunlu hökmdarı bir müddətdən sonra yenidən Van şəhərinə dönərək qalanı ələ keçirə bilmişdi [11, s. 124-127].

Azərbaycandakı vəziyyəti öz xeyrinə çevirməyə çalışan İsgəndər 1427/1428-ci ildə Şirvan üzərinə hücuma keçib Şamaxını talan etdi. 1428/1429-cu ildə qüvvələrini bir daha Sultaniyyə şəhərinə yönəldən İsgəndər İlyas Xocanın oğlu Yusif Xocanı əsir götürərək şəhəri özünə tabe etmiş, bununla birlikdə Qəzvin və Zəncan şəhərləri də ələ keçirmişdir. Bölgənin idarəsini Dəli Əhməd və Əbdülə tapşıran İsgəndərin bu hərəkəti 1429-cu ilin yayında Şahruxun Azərbaycan üzərinə ikinci yürüşü təşkil etməsinə səbəb olmuşdur. [11, s. 127].

Ölkədə mərkəzi hakimiyyəti bərpa edən Şahrux Azərbaycan və Anadoluda köhnə nüfuzunu bərpa etmək və buna görə də bölgəyə ən az Teymurilər qədər maraqlı olan Məmlüklər və Osmanlı dövlətlərinə güc nümayişi etmək istəyində idi. Qərbə doğru yeni bir səfər xüsusilə də ilk yürüşündən sonra Urfa şəhərinə hücum edən Məmlüklərə yaxşı bir göz dağı ola bilərdi.

Təbii ki, Anadoludan gələn dəstək məktubları da Teymuri sultanını bölgəyə gəlməyə vadar edirdi. Əlbəttə, bir az öncə qeyd etdiyimiz kimi, ən böyük səbəb Sultaniyyə, Qəzvin, Kirman kimi stratejik önəmə sahib bölgələrin ələ keçirilməsi idi. Şahrux ilk yürüşündə olduğu kimi pirləri ziyarət edərək irəliləmiş, yolda Fars, Yəzd, Kirman və digər hakimlərin də ona qatılması ilə ordudakı əsgərlərin sayı 100.000 nəfərə çatmışdı. Ramazan ayının başında Rey şəhərinə çatan Şahrux oğlu Baysunqur Mirzəni Qəzvin şəhərinə yollamış, burada möhkəmlənə bilməyən Qaraqoyunlu əsgərləri geri çəkilmək məcburiyyətində qalmışdır. Ramazan bayramı ərəfəsində Şahruxun orduları Qarqoyunlu əmirləri tərəfindən tərk edilmiş Sultaniyyə şəhərinə daxil olmuş və bayramı burada qeyd etmişdir [4, s. 12-13].

Şahruxun gəlişini eşidən İsgəndər Təbriz yaxınlığındakı Şənbi-Qazan mövqeyinə doğru geri çəkildi və Səlmas ovalığında ordusunu topladı. Türkmənlərin sayı təqribən 50.000 nəfər idi və atasının da planında olduğu kimi orduda piyada döyüşçülər də mövcud olmuşdu. Şahrux da öz ordusu ilə birlikdə Səlmasa gəldi və iki ordu 8 ildən sonra üz-üzə dayandı. İsgəndər mühasirəyə düşməmək üçün ətrafı dağ və çay olan bir yeri döyüş meydanı olaraq seçmişdi, lakin say baxımından Çağatay qoşunu daha üstün idi. Teymuri qoşunları müharibənin ilk gündə bitəcəyini düşünürdü. İsgəndər və eləcə də qardaşı Cahanşahın (Əbu Səidin bu müharibədə iştirakı dəqiq bilinmir) liderliyindəki türkmən qoşunları Şahruxun bu düşüncəsini alt-üst etdi. Döyüşün ilk günündə (1429-cu il 17 sentyabr) Qaraqoyunlular ustalıqla savaşmış, İsgəndər döyüş məharəti ilə hər kəsi heyran etmişdi, nəticə olaraq iki tərəf də öz düşərgələrinə geri çəkilmiş olsalar da, döyüş meydanından psixoloji üstünlüklə ayrılmışdılar. Teymuri qoşunlarının ikinci gün ərzində də aramsız hücumlarını türkmən birlikləri dəf etməyi bacardı. Arxa-arxaya iki gün güclü hücumların qarşısını ala bilən İsgəndər və qardaşları, döyüşün üçüncü günündə yorğun düşmüş qoşun ilə hücumlara davam gətirə bilmədi. Şahruxun bütün qüvvələri ilə etdiyi hücum Qaraqoyunlu birliklərini dağıtdı və Teymurilər Səlmas döyüşünün qalibi olaraq meydandan ayrıldılar. İsgəndər üzünü qərbə tutdu və Anadoluya doğru qaçdı. Bir müddət Əlincə qalasında gizlənən və Şahruxun Naxçıvana doğru hərəkət etməsilə qaçan İsgəndəri təqib etmək üçün isə Cuki Mirzə məmur edildi. Cahanşah isə Bağdada, digər qardaşının yanına üz tutdu. Cukinin təqibinə məruz qalan İsgəndər ətrafındakı adamlar ilə manevrlər edərək Teymuri ordu birliyini çaşdırmağa çalışır, amma təqibdən qurtula bilmirdi. Qaraqoyunlu hökmdarı yenə də üstün döyüş məharəti sərgiləyərək qəflətən Cukinin üzərinə hücuma keçdi və kiçik bir toqquşmadan sonra uzaqlaşdı. Təqibin böyük risk olduğunun fərqinə varan Cuki Mirzə geri dönməyi qərara aldı. Şahrux isə Əlincə mühasirəsini yarıda qoyun qışlamaq üçün Qarabağa yönəldi. Sultan burada ikən böyük qardaşı ilə aralarında fikir ayrılığı yaşanmış Əbu Səid onun hüzuruna gələrək Teymurilərə tabe olduğunu bildirdi. Şahrux bu hərəkəti yüksək qiymətləndirərək Əbu Səidi xoş qarşıladı və çeşidli hədiyyələr verdi (1430) [11, s. 128-132].

Şahruxun Azərbaycanda olmağı qərbdə Venesiyalılar ilə Səlanik şəhəri uğrunda müharibə aparan Osmanlılar üçün də böyük təhlükə idi. Çünki Osmanlı Ankara müharibəsində sonra özünə ancaq gələ bilmişdi. Venesiyalılar isə Teymuri hökmdarının Osmanlıya qarşı hücumunu gözləyirdi. Bütün bunlara baxmayaraq Şahrux 1429-cu ildə qış gəlmədən Azərbaycanı tərk etmək üçün hazırlıqlara başladı və Azərbaycanın idarəsini Əbu Səidə tapşırdı. Çağatay hökmdarının Xorasana dönüş xəbərini alan Osmanlı və Məmlük sultanları rahat nəfəs aldı [4, s. 14].

Şahrux Azərbaycandan çıxdıqdan sonra Qaraqoyunlu İsgəndər 1431-ci ildə yenidən Təbrizə gəldi və qardaşı Əbu Səidi öldürərək hakimiyyəti yenidən öz əlinə aldı. İsgəndərin gəlişi yerli xalqı məmnun etməmişdi, çünki xalq İsgəndərin zülmündən əziyyət çəkirdi. Eyniylə Van şəhərinin valisi olan oğlu Yar Əlinin də zülmündə və təyin etdiyi misli görülməmiş

dərəcədə ağır vergilərdən əhali təngə gəlmişdi. Oğlundan gələn şikayətləri eşidən İsgəndər xalqa rəhm edərək cəzalandırmaq məqsədilə oğlunu yanına çağırdı. Yar Əli atasının ona ağır bir cəza verəcəyini bilərək Şirvanşah I Xəlilullahın yanına qaçdı. Xəlilullah İsgəndərin oğlunu tələb edəcəyini yaxşı bilirdi və üstəlik Qaraqoyunlulara qarşı özünü müdafiə edəcək qədər gücü yox idi. Buna görə də o, Yar Əlini Şahruxun yanında yolladı (Yar Əlinin sonrakı taleyi barədə qısa məlumat vermək lazım gələrsə, o Heratda da rahat durmur və buradakı türkmənləri ətrafına toplayaraq iğtişaş törədəcəyi təhlükəsiylə həbs edilir, Uluqbəyin zamanında həbsdən qaçaraq bir müddət Heratda hakimliyi ələ keçirir, fəqət 1449-cu ildə Babür Mirzə tərəfindən öldürülür). İsgəndər bu hadisədən sonra Şirvanşahların üzərinə qoşun yollayaraq burada dəhşətli qırğınlar törətdi. Şirvanşah Xəlilullah çarəsizcə elçilərindən birini Şahruxun, digərini isə Qara Yuluq Osman bəyin yanına yollayaraq İsgəndərdən şikayət etdi. Teymuri sultanı baş verən bütün bu hadisələrə çox qəzəbləndi və bir çox əyanının qışın yaxınlaşması səbəbilə yürüşə çıxmamağı məsləhət görməyinə baxmayaraq sultan payızda yeni səfər üçün hazırlıqlara başlanılması əmrini verdi. Qışın çox sərt keçdiyi aylarda Reyə çatdı və daha irəliyə getməmək qərarı alaraq qışı burada keçirmək üçün düşərgə saldırdı. Digər tərəfdən Ağqoyunlu bəyi Osman isə Ərzincan şəhərinə hücum edərək qanlı döyüşlər nəticəsində qalanı ələ keçirdikdən sonra Sultan Şahruxa bu uğuru haqqında məlumat yolladı. Şahrux isə Cahanşahı yanına dəvət edərək Azərbaycan hakimliyini ona tapşırdı, üstəlik bu zaman Şirvanşah Xəlilullah da Xəzər dənizi vasitəsilə Şahruxun düşərgəsinə özünü yetişmişdi. Cahanşahın qardaşı ilə arasında ciddi problemlərin olması hər kəsə məlum idi, hətta 1433-1434-cü illərdə o, qardaşı İsgəndərə qarşı çıxmış, Şahruxun hakimiyyətini qəbul etmişdi. Şahruxun bu qədər – qəti bir şəkildə yürüş qərarı almasının bir digər səbəbi isə Bağdaddakı qardaşların da İsgəndərə qarşı olması idi. Yaz fəslinin ilk aylarında Cahanşaha Şahrux tərəfindən İsgəndərə tabe olan əraziləri ələ keçirmək tapşırılarkən, Cuki Mirzəyə və Xəlilullaha İsgəndərin üzərinə hücum etmək göstərişini verdi. Teymuri qoşunları Təbrizə yaxınlaşarkən İsgəndər Əlincə qalasına sığındı. Əlincə qalasında ikən kəşfiyyat xəbərləri onun yerini tapdığı üçün o, Anadoluya qaçmağa məcbur oldu [3, s. 22-23].

İsgəndərin Anadoluya qaçmasından sonra Şahruxun orduları üç hissəyə bölündü. Cahanşahın istəyi ilə İsgəndərin əyalının da sığındığı Bəyazid qalasına hücum etmək üzrə ordunun bir dəstəsi Cahanşahın əmrinə verildi, ordunun digər bir hissəsi Cuki Mirzənin rəhbərliyi ilə İsgəndəri təqib etməyə başladı və Şahruxun rəhbərliyindəki ordunun qalan qismi ilə Əlincə qalası mühasirəyə alındı. Cahanşah bir müddət Bəyazid qalasını mühasirədə saxladıqdan sonra qalanın mühafizəçiləri olan Şah Əli bəy və Seyyid Mahmud bəy qalanı Cahanşaha təhvil verdi. Digər tərəfdən isə Cuki Mirzə İsgəndəri amansız təqib edirdi. İsgəndər isə Osmanlı torpaqlarına sığınmaq məqsədilə Ağqoyunlu bəyliyinin torpaqlarından keçmək izni üçün Qara Yuluq Osman bəyə müraciət etdi. Təbii ki, Osman bəy icazə tələbini rədd edərək Ağqoyunlu dəstələri ilə İsgəndərin önünü kəsdi və 1435-ci ilin avqust ayında Ərzurum yaxınlığında qanlı döyüş baş verdi. Ağqoyunlular ağır məğlubiyyətə uğradılar, Qara Yuluq Osman bəy ağır yaralandı və Ərzurumda vəfat etdi. Şəhəri qoyub qaçan Ağqoyunluların yerinə İsgəndər buraya gələrək Qara Yuluq Osmanın bədənini məzardan çıxardı və başını kəsərək (Osmanın bir oğlunun başı ilə birlikdə) Ağqoyunluların qanlı düşməni olan Məmlüklərə yolladı. Döyüşdən bir neçə gün sonra döyüş meydanına gələn Çağatay qoşunu üst-üstə yığılmış cəsədləri gördükdə dəhşətə qapılmışdı. İsgəndər Osmanlı sərhədlərinə kimi təqib edildi və sonra Şahruxun əmri ilə Məhəmməd Cuki Mirzə geri döndü. Şahrux isə Əlincə qalasını yalnız razılaşma yolu ilə

təslim ala bildi. Sultan Şahrux 1435-ci ildə Azərbaycanın ala möhürünü və dolayısıyla idarəçiliyini Cahanşaha tapşırıb, tələsik Azərbaycanı tərk etdi. Tələskənliyinin səbəbi Mərkəzi Asiyada Özbək xanı Əbül Xeyrin Teymuri torpaqlarına basqını idi. Şahrux Qaraqoyunlu icmasının birliyini pozmaq və gücünü azaltmaq məqsədilə türkmənlərdən bir dəstə apardı [5, s. 19-20].

Sultan Şahruxun Azərbaycandan çıxması ilə Azərbaycanda vəziyyət yenə qarışdı. Osmanlı torpaqlarında pozğuculuq işləriylə məşğul olan İsgəndər Sultanın tələbi ilə Azərbaycana doğru yola düşdü (İsgəndərin Osmanlıya qaçması xəbərini eşidən Şahrux II Murada məktub yazaraq qaçağın tutulduğu yerdə geri göndərilməsini tələb etmiş, Sultan isə dostunu satmamışdır, lakin ölkə daxilində törətdiyi talançılıq əməlləri nəticəsində əhali arasında yaranan narazılığı aradan qaldırmaq məqsədilə Şahruxun geri dönməsini səbəb göstərərək geri dönməsini "xahiş etmişdir") [11, s. 138-140].

İsgəndərin aqibətinə gəldikdə isə o, Təbrizə yaxınlaşarkən Cahanşah qardaşının üzərinə ordu yolladı (1438-ci il). Kiçik qardaşı ilə döyüşə girəcək gücü olmayan İsgəndər geri dönərək ailəsi ilə birlikdə Əlincə qalasına sığındı. Cahanşah qalanı mühasirəyə alaraq qardaşının təslim olmasını tələb etdi. İsgəndər Osmanın başını məmlük sultanı Məlik Əşrəf Baybarsa göndərdiyi üçün onunla arasında müttəfiqlik münasibəti yaranmışdı. Məmlük sultanına kömək üçün müraciət edən İsgəndərin istəyi qəbul edilmiş, böyük bir ordu Qara Yusifin böyük oğlunu xilas etməyə yola çıxmış, lakin Məmlük sultanının ölümü ilə Ərzincana çatan qoşun geri dönmüşdü. Sonda isə İsgəndər oğlu Qubad tərəfindən yatdığı yerdə öldürüldü. Qaraqoyunlular dövlətində Cahanşahın 31 illik hakimiyyət dövrü başladı və dövlət Qara Yusifdən sonra uzunmüddətli sülh dövrünə qədəm qoydu.

**Nəticə.** Teymurun ölümündən sonra imperatorluğun bütünlüyü pozulmuş, daxildə aparılan taxt mübarizələri rəqiblərin güclənməsinə şərait yaratmışdı. Teymurun çoxillik səfərlərin nəticəsində ələ keçirdiyi Azərbaycan və Anadolu əldən çıxan ilk bölgələrdən olmuşdur. Əmir Teymur önəmli ticarət yollarını əlində tutmağa çalışırdı. Lakin onun varisləri qərb torpaqlarına yetərincə önəm verməmiş və nəticədə Məmlük Sultanı Fərəcin azadlığa buraxdığı, Teymurun ən böyük rəqiblərindən və Ankara savaşının baş verməsinin əsas səbəblərindən olan Qara Yusif ilə Sultan Əhməd Azərbaycan və Yaxın Şərqdə nəzarəti ələ keçirmişdir. Qara Yusifin Teymuriləri qovaraq qurduğu dövlət mərkəzi hakimiyyəti bərpa edən və atasının qurduğu dövlətin qüdrətini bərpa etmək məqsədilə hərəkət edən Şahruxun əsas hədəflərindən idi. Şahrux Azərbaycan torpaqlarına yürüşünü daha erkən planlamış olsa da, mərkəzi hakimiyyətə qarşı hərəkətlər buna icazə verməmişdi. 1419-cu ildə bu yürüşə başlamasının əsas səbəbi isə ticari baxımından çox önəmli mövqedə yerləşən Sultaniyyənin, habelə Qəzvinin ələ keçirilməsi idi. Bu vəziyyətdə belə sülh addımlarına hazır olduğunu göstərən Şahrux ən son addım olaraq yürüş təşkil etməyi planlayırdı. Çox güman ki bunun ilk və ən əsas səbəbi Qaraqoyunluların gücündən çəkinməsi idi. Tarixçi Faruk Sümerə görə bu çəkinmənin səbəblərindən biri Teymurun dövrünə ara verilməyən yürüşlər ola bilərdi.

Şahruxun hər üç yürüşünə nəzər yetirdikdə aydın olur ki, onun məqsədi atası kimi dünya fatehliyi deyil, tutduğu əraziləri birbaşa mərkəzə bağlamaq yerinə yenidən tabe etdiyi yerlərə yerli hakimlər təyin edir və onları özündən asılı hala salırdı. Əgər məsələyə Şahruxun Azərbaycan yürüşləri perspektivindən baxarsaq bu addım uğursuz olmuşdur. Çünki, ilk yürüşün sonunda buraya təyin olunan Ağqoyunlu Əli bəy çox qısa bir müddət sonra, ikinci yürüş sonunda təyin olunana Qaraqoyunlu Əbu Səid isə cəmi iki il sonra İsgəndər tərəfindən taxtdan endirilmiş və yenidən Qaraqoyunlular müstəqil siyasət yeritməyə və hətta Sultaniyyə və Qəz-

vini ələ keçirməyə müvəffəq olmuşdurlar. Bu vəziyyət isə Şahruxun hər iki yürüşünün nəticəsiz olduğunu göstərir. Yalnız üçüncü yürüşdən sonra taxta keçirilən Cahanşah 12 il ərzində Şahruxdan asılı siyasət yürütmüş, lakin onun ölümündən sonra özü müstəqilləşmiş, hətta sonrakı illərdə Teymurilərin paytaxtı Heratı ələ keçirmişdir. Əgər Şahruxun hər yürüşdə əsgər və təchizat baxımından itkilərini və yürüş nəticəsindən əldə etdiyi qazancları qarşılaşdırsaq, Şahruxun yürüşlərinin kiçik uğurlar xaricində bir qazancı olmadığını görə bilərik.

Şahruxun yürüşləri zamanı bölgənin digər güclü ölkələri olan Osmanlı və Məmlüklərin çəkinməsi, Teymur ölsə də, onun qorxusunun hələ də ölmədiyini göstərir. Üstəlik qərbin Ankara savaşında Teymurdan istifadə etməsinin ardından Şahrux qərb dövlətlərinin göndərdiyi elçiləri diqqətə almamış və Osmanlıya qarşı hər hansı bir addım atmamışdır. Təbii ki, bunun səbəbini Şahruxun Ankara savaşından qərbin iki türk-müsəlman dövlətlərini bir-birinə qırdıraraq qazanması planını anlamasına yozmaq üçün əlimizdə heç bir fakt yoxdur. Lakin hər hansı səbəbə görə olur olsun, Şahrux tərəfindən atılan bu addımın Osmanlı dövlətinin mövcudiyyətini qoruduğu gərçəyini dəyişdirmir.

Şahruxun yürüşlərinin nəticəsiz qalmasının ən böyük səbəblərindən bir digəri isə İsgəndərdir. Şahrux hər üç yürüşdə onu məğlub etmiş, lakin heç birində onu öldürə bilməmişdir. İlk iki yürüşün sonunda Anadoluya qaçan İsgəndər təqib edilsə də gizlənə bilmiş, Teymurilər Azərbaycandan çıxdıqdan sonra geri gələrək hakimiyyətini bərpa etmişdir. Bu isə Şahruxun Azərbaycanda qurduğu sistemin zəifliyini və hətta onun Azərbaycanda çox böyük maraqlarının olmadığını göstərir.

Giriş hissəsində də bəhs etdiyimiz kimi Şahruxun yürüşləri hər nə qədər Teymuri siyasəti baxımından nəticəsiz və uğursuz kimi görünsə də, araşdırılması tarixi baxımdan bir o qədər qiymətli və dəyərlidir. Bu yürüşlərdə baş verən hadisələr şübhəsiz ki, regionun taleyini dəyişmiş, və Cahanşah kimi bir çox tarixi şəxsiyyətin ortalığa çıxmasına şərait yaratmışdır.

## ƏDƏBİYYAT

1. Aka İ. Mirza Şahruh: Kronik kitap. İstanbul, 2022.
2. Aka İ. Timurlular: Kronik kitap. İstanbul, 2022.
3. Aka İ. İranda Türkmen hakimiyeti (Karakoyunlular devri). Ankara: Türk Tarih Kurumu, 2001.
4. Aka İ. Şahruhun Karakoyunlular üzerine seferleri // Tarih İncelemeleri Dergisi, 1989, № 4.
5. Alan H. Timurlular. İstanbul: Ötüken yayımları, 2020.
6. Andican A. Emir Timur. İstanbul: Selenge yayınları.
7. Azərbaycan tarixi: 7 cilddə. III c., Bakü, 2007.
8. Behramnejad M. Karakoyunlular ve Akkoyunlular. İstanbul, 2022.
9. Tihrani E.B. Kitab-ı Diyarbekiriyye. Ankara, 2014.
10. Grousset R. Stepler İmparatorluğu. Ankara: Türk Tarih Kurumu, 2022.
11. Sümer F. Karakoyunlular. Ankara: Türk Tarih Kurumu, 2021.
12. Uzunçarşılı İ.H. Anadolu beylikleri ve Akkoyunlu, Karakoyunlu devletleri. Ankara, 1969.
13. Yusifov Y., Bünyadov Z. Azərbaycan tarixi. Bakı, 2007.

***Türkiyə Respublikası Erciyəs Universiteti***

**Turgay Asadli**

## SHAHRUKH'S ATTACKS TO AZERBAIJAN

XIV century has a very different place in the history of Azerbaijan. The Elkhani empire, established after the Mongol invasion, weakened and collapsed, and in its place, Azerbaijan came under the rule of another state of Mongol origin – the Jalayirids, based in Baghdad. However, this rule did not last more than 30 years, and in its place, the Chagatais under the leadership of Amir Teymur, who left a mark on world history, came under the influence of the region. Timur's death in 1405 greatly weakened this influence, but his successor, Sultan Shahrukh, marched to Azerbaijan 3 times to restore it. Although the initial target of these marches was Azerbaijan, their influence spread throughout Anatolia and the Middle East.

Shahrukh's marches show that Azerbaijan is a significant region not only for the leaders who want to capture and control the region, but for the emperors who claim to conquer the world. The purpose of writing the article is to attract the necessary attention to this period of history, to contribute to the scientific literature, even if it is small. When writing the article, the most important works of Azerbaijani and Turkish historiography written about the Timuris and Kara Koyunlu were used.

**Keywords:** *Azerbaijan, Shahrukh, Timuri, Kara Koyunlu, Jalayirids.*

**Тургай Асадли**

## НАПАДЕНИЯ ШАХРУХА НА АЗЕРБАЙДЖАН

XIV век занимает особое место в истории Азербайджана. Империя Эльханидов, созданная после монгольского нашествия, ослабла и распалась, Азербайджан перешел под власть Джалаиридов, другого государства монгольского происхождения, образовавшегося на ее месте, со столицей в Багдаде. Однако это правление не продлилось более 30 лет, и впоследствии регион попал под влияние чагатайцев под предводительством Эмира Теймура, оставившего след в мировой истории. Смерть Теймура в 1405 году сильно ослабила это влияние, но его преемник султан Шахрух трижды предпринимал поход в Азербайджан, чтобы восстановить его. Хотя первоначальной целью этих маршей был Азербайджан, их влияние распространилось по всей Анатолии и Ближнему Востоку.

Походы Шахруха показывают, что Азербайджан является очень важным регионом не только для лидеров, желающих захватить и контролировать регион, но и для императоров, претендующих на завоевание мира. Цель написания статьи – привлечь необходимое внимание к этому периоду истории, внести, пусть и небольшой, вклад в научную литературу. При написании статьи были использованы важнейшие труды азербайджанской и турецкой историографии, написанные о Теймуридах и Кара-Коюнлу.

**Ключевые слова:** *Азербайджан, Шахрух, Теймуриды, Кара-Коюнлу, Джалаириды.*

*(AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 16.09.2024**
**Son variant 23.10.2024**